*“Metafizika” Journal*
***2022, vol 5, issue 3, serial 19, pp.43-57***

**UOT:** 1.101.8
**KBT:** 87.22
**MJ №** 130

# Qnoseologiya və epistemologiya: müqayisəli fəlsəfi təhlil

**Turanə Əlibəyova***
**Füzuli Qurbanov****

**Abstrakt.** Müasir tarixi mərhələ fəlsəfi-elmi idrakın fəlsəfi refleksiyasını daha da aktuallaşdırıb. Filosoflar və metodoloqlar həmin sırada idrak prosesinin daxili təkamül özəllikləri ilə yanaşı, onun sosial-mədəni kontekstinə də daha çox diqqət yetirirlər. Məqalədə həmin prizmada fəlsəfi-elmi idrakda qnoseologiya (idrak nəzəriyyəsi) və epistemologiyanın anlamları və onların qarşılıqlı əlaqələrinin dəyişmə dinamikası araşdırılır.

Bunun üçün antik dövr, orta əsrlər və yeni dövrdə qnoseoloji və epistemoloji məsələlərin filosoflar və alimlər tərəfindən təhlil edilməsinin fəlsəfi özəlliklərinə baş vurulur. Aparılan tədqiqatlar əsasında qənaətlər əldə edilir.

Fəlsəfi-elmi idrak tarixində və başlıca olaraq müasir mərhələdə idrak nəzəriyyəsi ilə epistemologiyanın fəlsəfi ölçülməsi cəhdi məqalənin əsas məqsədini təşkil edir.

Metodologiya olaraq məqalədə sistemli yanaşma çərçivəsində fənlərarası tədqiqatlardan istifadə edilib.

Analiz, sintez, biliyin özünütəşkili, müşahidəlilik, müqayisəli təhlil və inteqrativ izahdan yararlanılıb.

Məqalənin elmi yeniliyi müasir tarixi mərhələdə qnoseologiya ilə epistemologiyanın fərqli və qarşılıqlı əlaqələr səviyyəsinə keçidində intersubyektivliyin böyük rol oynadığı tezisini irəli sürməkdən ibarətdir.

---

* AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: turane.alibeyova91@icloud.com
https://orcid.org/0000-0002-6447-0170
** Fəlsəfə üzrə elmlər doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu; Bakı, Azərbaycan
E-mail: fuzuli.qurbanov.59@mail.ru
https://orcid.org/0000-0002-2906-9218
**Məqaləyə istinad:** Əlibəyova, T., & Qurbanov, F. [2022]. Qnoseologiya və epistemologiya: müqayisəli fəlsəfi təhlil. *“Metafizika” jurnalı. 5*(3), səh.43-57.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 08.05.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 10.06.2022*
*Çapa qəbul edilmişdir: 03.09.2022*

**Açar sözlər:** subyekt, obyekt, fəlsəfi-elmi idrak, postneoklassik elm, intersubyektivlik, idrak nəzəriyyəsi, dərketmənin dərk edilməsi, elmi bilik, elmi rasionallıq

## 1.Giriş

Təbiətin, insanın və cəmiyyətin fəlsəfi-elmi dərk edilməsi məsələsi qədim dövrlərdən fəlsəfi idrakın əsas hədəflərindən olmuşdur. Fəlsəfənin və hər bir elmin təkamül tarixi göstərir ki, ümumi halda "bilik nədir?", "bilik necə yaranır?", "insan dünyanı necə dərk edir?" və sair kimi suallara cavab axtarışları özünü göstərmişdir.

Bundan başqa, dərketmə problematikası fəlsəfi və elmi yanaşmalarda daha konkret səviyyədə də araşdırılmışdır. Bu prosesin öz daxili məntiqi və sosial-mədəni konteksti olduğundan fəlsəfə tarixində "dərketmənin dərkedilməsi" xüsusi istiqamət kimi özünü göstərmişdir.

Sonuncu məqam fəlsəfi-elmi idrakda o dərəcədə geniş və dərin mövqeyə malikdir ki, həm yanaşmalar fərqlidir, həm də gəlinən nəzəri-qnoseoloji və metodoloji qənaətlər müxtəlifdir.

Hazırda fəlsəfi-elmi ədəbiyyatda dərketmənin nəzəri-metodoloji sistem kimi təsnifatında iki xətt özünü göstərir. Bir qism filosof və metodoloq qnoseologiya (idrak nəzəriyyəsi), digərləri isə epistemologiyadan bəhs edirlər. Fəlsəfi aspektdə əsas sual onlardan hansıların haqlı olmasından ibarət deyil. Burada başlıca fəlsəfi məqamlar dərketmə prosesinə subyekt-obyekt münasibətləri, yaxud bilik-obyekt münasibətləri kontekstində yanaşmalarla bağlıdır. Yəni istər qnoseologiya (idrak nəzəriyyəsi) adlandıraq, istərsə də epistemologiya problemin fəlsəfi-elmi mahiyyəti biliyin yaranmasına, onun strukturlaşmasına, funksionallaşmasına və tətbiqinə hansı bucaq altında və qarşılıqlı əlaqələr müstəvisində baxmaqdan ibarətdir.

Eyni zamanda, çox sayda filosof yuxarıda vurğuladığımız yanaşma fərqini nəzərə almır. Onlar faktiki olaraq qnoseologiya (idrak nəzəriyyəsi) ilə epistemologiyanı eyniləşdirirlər. Burada yalnız terminoloji fərqin mövcudluğundan bəhs edirlər. Həmin tədqiqatçılar üçün əsas məsələ biliyin necə formalaşması, struktur-funksional keyfiyyətlər alması və tətbiqi özəlliklərinin fəlsəfi-elmi dərkindən ibarətdir.

Biz bu məqalədə yuxarıda ifadə etdiyimiz kontekstlərdə idrak nəzəriyyəsi (qnoseologiya) ilə epistemologiyanın qarşılıqlı əlaqədə bir sıra fəlsəfi aspektlərdə müqayisəli analizinə baş vurmağa çalışacağıq. Bu araşdırma bizə müasir fəlsəfi-idrakın bir sıra parametrlər üzrə təkamül dinamikasını daha aydın təsəvvür etməyə, fəlsəfi-elmi dərketmənin daxili dinamikası ilə yanaşı sosial-mədəni fonunu müəyyən dərəcədə anlamağa imkan yarada bilər. Həmin məsələ

bütövlükdə fəlsəfi-elmi idrakın müasir mərhələdə məzmunu, mahiyyəti və yeniləşmə dinamikasını dərketmə baxımından aktuallıq kəsb edir.

Təbii ki, biz bu məqalədə vurğulanan problemin tam analizini aparmaq və ya onu elmi problem kimi birdəfəlik həll etmək iddialarından çox uzağıq. Lakin bu məsələnin fəlsəfi analizinə müəyyən töhfə vermək mümkündür deyə, düşünürük.

Məqalədə sistem yanaşma çərçivəsində fənlərarası mövqedən seçilən fəlsəfi-elmi problemin araşdırılmasına cəhd edəcəyik. Əsas məqsəd fəlsəfi-elmi biliyin formalaşmasına fəlsəfi yanaşma nəticəsində əmələ gələn sistem-nəzəri və metodoloji təlimlərin qarşılıqlı əlaqədə analizini aparmaqdan ibarətdir. Bu zaman əsas aksenti müasir mərhələdə fəlsəfi-elmi idrakın özəllikləri fonunda aktual olan parametrlər üzərinə fokuslaşdırmağa çalışacağıq.

Fəlsəfi-tarixi və dialektik metodologiyanın çalarlarının yer aldığı araşdırmada analiz, sintez, biliyin özünütəşkili, müşahidəlilik, müqayisəli təhlil və inteqrativ elmi mənzərənin yaradılması kimi metodlardan istifadə etməyə çalışacağıq.

## 2.Problemin tarixinə qısa nəzər: fəlsəfi-elmi idrak və biliyin formalaşması

Beləliklə, qədimdən insana aid olan dərketmə fenomeninin “özünü necə dərk etməyin mümkün olması” sualı aktuallıq kəsb etmişdir. Ancaq məsələ fəlsəfi-elmi yanaşma ilə məhdudlaşmır. Dərketmənin mifoloji, dini, təcrübəyə və ya sağlam düşüncəyə əsaslanan və digər növləri də mövcuddur. Buradan fəlsəfi-elmi idrakın digərlərindən fərqi məsələsinin aktuallığı meydana çıxır və ona biliyin formalaşması aspektində meydana gələn fəlsəfi-nəzir təlimlərin özəllikləri fonunda baxanda daha mürəkkəb dərketmə situasiyasının yaranması ilə qarşılaşırıq. Buna rəmzi olaraq problemin “birinci budaqlanması” deyək.

Növbəti səviyyədə ayrıca fəlsəfi-elmi idrak daxilində biliyin dərk edilməsi yeni “budaqlanmalar”la müşayiət olunur. Bu, biliyin bütövlükdə formalaşma qaydası və üsulları, onun məzmunu, funksiyası, biliyi əldə etməyin başlıca məqsədi, biliyin məntiqi strukturlaşması və digər aspektlərdə özünü göstərir. Bu fərqləndirmə işığında “qnoseologiya” və “epistemologiya” anlayışlarının etimologiyasına nəzər salaq.

“Epistemologiya” termini ümumilikdə biliyin rəmz formasında ifadəsi kimi dərk edilir [1, 06.22.2020]. Tədqiqatçılar bu qənaətə qədim yunan dilində “epi” sözönünün “fövqündə”, “fonunda”, “üzərində” kimi məna çalarlarına malik olmasından gəlirlər [2, s.8-9]. “Bilik” anlayışına isə qədim yunanlar “bilmək” (qədim yunancada - “eidenai”) terminindən çıxış edərək məzmun vermişlər. Həmin mənada “bilmək” (və ondan əmələ gələn “bilik”) “gizli olanın təzahürlərini” görmək anlamında işlədilir. Məhz buna görə Platon biliyi “eydos” adlandırırdı.

Deməli, qədim yunanlar üçün bilik istənilən obyektin (müasir terminologiya ilə desək) gizli olandan aydınlaşması, əyaniləşməsi (məcazi, ideya mənasında, predmetləşməsi (şüur üçün)) nəticəsində formalaşan məfhumdur. Həmin mənada bilik əşyanın mahiyyətini, məzmununu (bir qədər də ümumi desək, "forması"nı) ifadə edəndir. Epsitemologiya isə bu prosesi öyrənən fəlsəfi-elmi yanaşmadır.

Görünür, qədim dövrlərdən qaynaqlanan bu yanaşma əsasında müasir filosoflar sırasında epistemologiyanı biliyi olduğu kimi tədqiq edən fəlsəfi sfera statusunda tərif edənlər vardır. Həmin əsasda epistemologiyanı stuktur-funksional özəllikləri və inkişafı aspektlərində tədqiq edən xüsusi fəlsəfi sahə olaraq qəbul edirlər [3, s.1232].

İndi "qnoseologiya" termininin etimologiyasına nəzər salaq. "Qnoseologiya" qədim yunancada "idrak" və "biliyi" ifadə edir. Onu qədimdən fəlsəfi təlim kimi qəbul edirlər. Filosofların və metodoloqların fikrinə görə, qnoseologiya çərçivəsində bütövlükdə idrak təlimləri tədqiq olunur və həm də onlara tənqidi yanaşılır.

Görünür, həm etimoloji yaxınlığı, həm də tədqiqat obyektinin eyniliyi (idrak, bilik) Qərb və Rusiya filosoflarının əksəriyyətini qnoseologiya ilə epistemologiyanı eyniləşdirməyə sövq etmişdir [5, 20.06.2022; 6, 11.05.2022; 7, s.256]. Müasir Qərb filosofu A.P.Martinich elektron ensiklopediyada epistemologiyanı "bəzən idrak nəzəriyyəsi də adlandırırlar" fikrini yazmışdır [4, 22.06.2020].

Rusiyalı filosof V.Lektorskiy isə XXI əsrin başlanğıcında yazırdı ki, idrak nəzəriyyəsi problematikası ilə epistemologiya problematikası bir-birindən fərqlənmirlər və ayrıca vurğulayır ki, *"...mən (yəni V.L.Lektorskiy- F.M., T.Ə.) müasir əksər müəlliflər kimi, bu terminləri fərqləndirmirəm"* [14, s.5].

Bununla yanaşı, epistemologiya ilə qnoseologiyanı (idrak nəzəriyyəsini) fərqləndirən filosoflar da vardır. Onlar qnoseologiyanın biliyi "subyekt-obyekt" münasəbitləri kontekstində öyrəndiyini vurğulayırlar. Epistemologiyanın isə biliyi "obyekt-bilik" münasibətləri prizmasında tədqiq etdiyini ifadə edirlər. A.Y.Babaytsevin fikrincə, epistemoloqlar *"...daha çox biliyin özünə xas olan obyektiv strukturundan çıxış edirlər"*.

Qnoseologiya üçün isə dərk edən "qnoseoloji subyektlər" əsasdır. Bu cür fərqlərə görə, epistemologiyada başlıca olaraq biliyin quruluşu, biliyin obyektivləşmə mexanizmləri, elmi-nəzəri və praktiki fəaliyyətdə onun reallaşmasının özəllikləri, biliyin növləri, biliyin dəyişmə dinamikasının ümumi qanunları araşdırılır [3, s.1232].

Aparılan müqayisələr qnoseologiya və epistemologiyaya müasir fəlsəfi diskurs prizmasında mövcud olan baxışları ifadə edir. Lakin hələ antik filosoflar

ümumilikdə “dərketmə (bizim anlamımızda qnoseologiya və ya epistemologiya- F.Q., T.Ə.) necə mümkündür?” və həm də “niyə mümkündür?” suallarını qoyur və onlara cavab axtarırdılar. Nümunə kimi, Aristotelin fəlsəfi mövqedən “idrak niyə mövcud olmalıdır?” sualını qoyduğunu və onu izah etməyə çalışdığını göstərə bilərik. Həmin suala cavab axtarışı bağlılığında Aristotel insanın dünyanı dərk etməyə təbiətən meyilli olduğunu deyirdi. İnsanlar dərketməyə “təəccüb” etməkdən başlaya bilərlər. Təəccüb isə maraq və şübhədən yaranır.

Deməli, fəlsəfi-elmi dərketmənin kökündə emosional səviyyədə təəccüb, maraq, çaşqınlıq və şübhə dayanır. Əlbəttə, burada söhbət Artistotelin idrak haqqında mütləq obyektiv həqiqət söylədiyindən getmir. Qnoseologiya və epistemologiya baxımından əsas olanı böyük yunan filosofun qədimdən dərin fəlsəfi qatlarda “idrak nədir?”, “dərketmə necə mümknüdür? və deməli, müasir terminologiya ilə desək, “qnoseologiya və ya epistemologiya necə mümkündür?” sualına cavab axtarmışdır.

Bundan başqa, digər yunan filosof Platon bir neçə dialoqunda (məsələn, “Kratil”, “Dövlət”, “Teetet” və “Menon” dialoqlarında) biliklə gerçəklik arasındakı fərqi və həmdə bağlantını təhlil etmişdir. Bununla o, faktiki olaraq XXI əsr üçün də aktual olan epistemoloji xarakterli “biz nəyi bilirik?” və “biz nəyisə bildiyimizi haradan bilirik?” kimi çətin suallara aydınlıq gətirməyə çalışmışdır.

Ellinizm mərhələsində mövcud olmuş fəlsəfi təlimlərdə qnoseoloji və ya epistemoloji xarakterli məsələlərə çox diqqət yetirilmişdir. Onların yanaşma spektri geniş olsa da, başlıca olaraq skeptik mövqe özünü göstərirdi. O sırada Sekst Empirikin “yaxşı həyat”a aydın olmayan şeylərə fəlsəfi mühakimələri (“epoché”ni) dayandırmaqla nail olmaq mümkündür, daha çox yada düşür. Bu, ümumiyyətlə, fəlsəfi-elmi dərketməyə pessimist münasibətin təzahürü idi.

Eyni mövqe qədim hind fəlsəfəsinin bəzi cərəyanlarında özünü göstərmişdir. Onlar həm biliyin mövcud ola bilməsinə şübhə ilə yanaşırdılar, həm də biliyin mövcudluğu mümkün olsa belə, insan həyatında heç bir faydalı rol oynamadığını iddia edirdilər [4, 22.06.2022].

Məsələnin vurğulanan aspekti bizi maraqlandıran elmi problem baxımından həm də o səbəbdən əhəmiyyətlidir ki, antik filosofların qnoseoloji və ya epistemoloji təsəvvürləri tarixin sonrakı mərhələsində bütövlükdə fəlsəfi-elmi idrakın məzmun, mahiyyət və məqsədinə ciddi təsir etdi. Hətta orta əsrlərdə, intibahda və yeni dövr Avropa fəlsəfəsində epistemoloji təsəvvürləri yunanların qaldırdığı idraki məsələlərə cavab axtarışlarının qədim dövrdən sonrakı təkamül mərhələləri kimi qəbul edə bilərik.

Orta əsrlərdə dərketmə məsələsinə böyük maraq olmuşdur. Həmin dövrün bir çox filosofları, məsələn, Con Skott, Uilyam Okkam, Foma Akvinski və başqaları fəlsəfi idrakın xüsusiyyətlərini araşdırmağa cəhdlər etmişlər. Lakin onlar orta əsrlərin ruhuna uyğun olaraq dini faktoru ciddi surətdə nəzərə almışlar. Buna baxmayaraq, orta əsrlərdə qnoseoloji və epistemoloji məsələlərin fəlsəfi dərkində maraqlı fikirlər irəli sürülmüşdür ki, onların əlsəriyyətinin qaynağı Platon və ya Aristotel fəlsəfəsinə gedib çıxırdı. Deyək ki, Foma Akvinski "intellekt və əşyanın uyğunluğu"ndan bəhs edirdi. Bu, bir qədər dəyişmiş formada Platon və Aristotel fəlsəfəsində mövcud olmuş, anlayışın əşyanın mahiyyətini ifadə etməsi ilə oxşarlıq təşkil edir.

Lakin burada bir incəlik vardır: F.Akvinski uyğunluq dedikdə insanın yaratdığı anlayışların Allahın "intellekt"ində mövcud olan "anlayışlar"a uyğunluğu dərəcəsi kimi başa düşürdü. Belə çıxır ki, Foma Akvinski idraki prosesə dərk edən subyektlə dərk edilən obyektin "oxşarlaşdırılması" kimi baxırdı. Özlüyündə mürəkkəb bir fəlsəfi anlam olan bu xüsusiyyət onu göstərir ki, Orta Ərs Avropa fəlsəfəsində Qədim Yunan rasionalizminin əsasında qnoseoloji məsələləri dini yanaşma ilə "barışdırmağa" cəhdlər mövcud olmuşdur. Nəticədə bütövlükdə fəlsəfi təfəkkür üçün maraqlı və aktual olan bir sıra qnoseoloji (və həm də epsitemoloji) məqamlar formalaşmışdır.

Məsələn, F.Akvinskiyə görə, vurğulanan subyekt-obleykt oxşarlaşması xüsusi idraki formalar vasitəsi ilə əyaniləşir. Onlar (idraki formalar) obyekt deyillər- obyekti dərk etmək üçün xüsusi alətlərdirlər. Bu zaman, hissi dərketmədən əqli dərketməyə keçid ruhən baş verir. F.Akvinski o prosesi abstraksiya mahiyyətli kimi təqdim edir. Konkret olaraq, filosof *"fəaliyyətdə olan zəka"* ifadəsini işlədir. Fəlsəfi biliklə bağlı burada F.Akvinski bir koqnitiv mexanizm təklif edir.

O hesab edir ki, qavrama nəticəsində əmələ gələn "fəaliyyətdə olan zəka" "mümkün zəka"ya formalaşan anlayışlar haqqında məlumat verir. Bunun nəticəsində fəlsəfi bilik (və ya təlim) formalaşır. Belə çıxır ki, Foma Akvinski üçün fəlsəfə informasiya (məlumat aspektində) ilə anlayışların vəhdətidir. Bu məqamda da orta əsr filosofunun Aristotel fəlsəfəsini xeyli dərəcədə "təkrarladığı" görünür.

Bunlar idraki baxımdan ona dəlalət edir ki, orta əsr Avropa fəlsəfəsində qnoseoloji məsələlər qədim Yunan fəlsəfəsinin rasional çərçivəsi daxilində qoyulmuşdur. Lakin orta əsrdə filosoflar dini dünyagörüşü kontekstində maraqlı "idraki improvizasiyalar"a da baş vurmuşlar.

Vurğulanan kontekstdə orta əsr müsəlman fəlsəfəsində də maraqlı proseslər baş vermişdir. Həmin bağlılıqda tədqiqatçılar Əbu Hamid əl-Qəzalinin yaradıcılığına böyük diqqət yetirirlər. Əl-Qəzali "biz hansı əşyaları dərk edə

bilərik?” sualını qoyur və ona yunan fəlsəfi rasionalizmi çərçivəsində cavab axtarmağa çalışır. Onun irəli sürdüyü təməl prinsiplərdən biri əşyaların həqiqi təbiətini dərk etmənin yolunun idrak prosesinin özünün həqiqi təbiətini dərk etmədən keçməsindən ibarətdir. Bunu isə sübutluluq, isbat və tam doğru olduğu qəbul edilən müddəalarla reallaşdırmağın mümkünlüyündən bəhs edir. Həmin üsulla əl-Qəzali qnoseoloji aspektdə çox maraqlı bir qənaətə gəlib çıxır ki, onun aktuallığı müasir fəlsəfə çün də çox önəmlidir.

Biz əl-Qəzalinin qnoseoloji-epistemoloji kontekstdə həqiqi biliklə rəyi fərqləndirməsini nəzərdə tuturuq. O, həmin məsələni “Yanlışlıqlardan xilas edən kitab” adlı əsərində araşdırmışdır. Bu, faktiki olaraq qədim yunan fəlsəfəsində Platon və Aristotelin dərketməyə yanaşmasının inkişafıdır [8, 18.05.2022. s.2]. Çünki “həqiqi bilik” və “rəy” fərqləndirməsindən bəhs edilirsə, daha ümumi səviyyədə fəlsəfi-elmi idrakla digər dərketmə formaları arasında fərq qoymaq deməkdir. Eyni zamanda, fəlsəfi yanaşma çərçivəsində qnoseoloji aspektdə həqiqi biliyin hansı meyarlarla müəyyən oluna biləcəyi məsələsini aktuallaşdırmaq deməkdir. Məsələnin bu tərəfinə Avropada Rene Dekart da böyük diqqət yetirmişdir. Deməli, hələ əl-Qəzali qədim Yunan fəlsəfi rasionalizmi təməlində fəlsəfə üçün şüuri təcrübə məsələsinin önəmli olduğunu dərk etmişdir.

Onu qeyd edək ki, müasir tədqiqatçılar əl-Qəzalinin idrak nəzəriyyəsinə getdikcə daha çox maraq göstərirlər. Məsələn, İ.Qulov dissertasiya işində əl-Qəzalinin qnoseoloji təliminin mahiyyətini bilik və idrak haqqındakı hermenevtik fikirlərin təşkil etdiyindən yazır. Vurğulayır ki, əl-Qəzali “zəka”, “rasionalizm” anlayışlarını xüsusi fəlsəfi kontekstdə təhlil edir və konkret nəticələr alır. Onların sırasında əl-Qəzalinin biliyi noumenal və fenomenal aləmlərin dərk edilməsinin nəticəsi kimi anlaması müasir fəlsəfi idrak üçün də aktual sayılmalıdır [9, s.7].

Vurğuladığımız məqamlardan belə görünür ki, antik dövr, orta əsrlər, intibah dövrü tarixi mərhələlərində fəlsəfə üçün qnoseoloji (və ya epistemoloji) məsələlər kifayət qədər aktual olmuşdur və ona diqqət yüksələn xətlə dəyişmişdir. Bütün bunlar yeni dövrdə (XVII əsrdən başlayaraq) Avropada idraki məsələlərin öncül mövqeyə çıxmasının əsasını yaratması təsiri bağışlayır. Konkret olaraq, XVII əsrdən başlayaraq dərketmə təlimi fəlsəfi aspektdə “elmin epistemologiyası” kimi məzmun aldı. Bu zaman qnoseologiya ilə epistemologiya arasında fərq qoyulmurdu. Əslində isə XVII-XVIII əsrlərdə “epistemologiya” termini fəlsəfi ədəbiyyata tam mənası ilə daxil edilməmişdi.

Fəlsəfi mənbələrdə göstərilir ki, “epistemologiya” termin olaraq tam mənası ilə ingilisdilli fəlsəfi ədəbiyyata 1854-cü ildə şotland filosof Ceyms Ferye tərəfindən daxil edilmişdir. İlk olaraq bu termini o, “Metafizikanın

institutları” əsərində işlətmişdir. F.Ferye həmin əsərində epistemologiyanı idrak nəzəriyyəsinin analoqu kimi təqdim etmişdir, yəni faktiki olaraq onları eyniləşdirmişdir. C.Ferye epistemologiyanın əsas sualını “bilik nədir?” hesab etmişdir. Bundan başqa, onu vurğulamaq gərəkdir ki, fransızca epistemologiyanın (épistémologie) dar mənası da mövcuddur. O, elmin fəlsəfəsini ifadə etməklə bağlıdır. Təsadüfi deyil ki, fransız filosofları həmin termindən yalnız elmin fəlsəfəsini ifadə etmək üçün istifadə etmişlər. Ayrıca, E.Meyerson keçən yüzilin əvvəllərində “epistemologiya”nın “elmin fəlsəfəsi”nin ekvivalenti kimi dövriyyəyə daxil edildiyini xüsusi qeyd etmişdir [1, 11.05.2022].

Görünür, yeni dövrdə fəlsəfi-elmi idraka əsas olaraq elmi məntiq prizmasından yanaşıldığından başlıca sual həqiqi biliyin mənbəyində hissi və ya rasional idrakın dayandığının aydınlaşması ilə bağlı olmuşdur. Bu da öz növbəsində yeni dövrdə epistemoloji və ya qnoseoloji “rəqabət”i empiriklərlə rasionalistlər arasında gedən müzakiər kimi təsnif etməyə imkan yaradır. F.Bekon, C.Lokk, D.Yum, R.Dekart, B.Spinoza, H.Leybnits və digərlərinin fəlsəfi mübahisələri vurğulanan prizmada maraqlı bir mənzərə təsiri bağışlayır.

Eyni zamanda, fəlsəfi olaraq qnoseologiya-epistemologiya müqayisələrinin “anatomiyası” müstəvisində maraqlı bir məqama gəlmiş oluruq.

Birincisi, qnoseologiya və epistemologiyanın müqayisəsi aspektində “epistemologiya” termininin daxil olduğu mərhələyədək müxtəlif fəlsəfi sistemlərdə idraka, biliyə, subyekt-obyekt münasibətlərinə, həqiqi biliyin meyarlarının müəyyən edilməsinə və digər idraki məsələlərə geniş şəkildə toxunulduğunu demək mümkündür.

İkincisi, yeni dövr qərb fəlsəfəsində “epistemologiya” termininin daxil edilməsi ilə idrak nəzəriyyəsi haqqında sistemli və müstəqil fəlsəfi istiqamətdən bəhs etmək mərhələsinə qədəm qoyulmuşdur.

Bu iki məqamın vəhdəti isə uzun tarixi təkamül mərhələsini keçən fəlsəfi idrakın müasir dövrdə məzmun, məqsəd və metodoloji özəlliklərini təşkil etməkdədir. Həmin bucaq altında problemə baxanda qnoseologiya ilə epistemologiya arasında müəyyən fərqlərin görülməsi təbii təsir bağışlayır. Çünki fəlsəfi-elmi idrak genişlənir və dərinləşir. Bu da meydana daha konkret ölçülərdə subyekt, obyekt, subyekt-obyekt və bilik kimi anlayışların fəlsəfi refleksiyasını fərqli kontekstlərdə akutallaşdırır.

Deyək ki, burada subyekt-obyekt münasibətləri antik dövrdə, orta əsrlərdə, intibah mərhələsində və yeni dövrdə XX əsrin ikinci yarısına qədər olan müddətdə mövcud olmuş fəlsəfi izahlara adekvat deyil. Məsələn, müasir fəlsəfi-elmi idrak üçün “intersubyektivlik” anlayışı daha fundamental

əhəmiyyət kəsb edir. Artıq klassik və ya qeyri-klassik elmi mərhələdə mövcud olmuş meyarlar əsasında subyekt-obyekt münasibətlərini izah etmək tam elmi qəbul edilmir. Bu kimi məqamalrın prizmasında müasir fəlsəfi-elmi idrakda qnoseologiya ilə epistemologiyanın münasibətlərini (və ya nisbətlərini) fəlsəfi olaraq necə “ölçmək” olar?

**3.Postneoklassik (və ya postqeyri-klssik) mərhələ: qnoseologiya və epistemologiyanın “çulğalaşması”**

Bu məsələ hazırda çox mürəkkəb məntiqi-qnoseoloji və metodoloji yanaşma tələb edir. Onlar tədqiqatda ilk addımlarını atan insan üçün çətindir. Həmin səbəbdən, vacib saydığımız bir sıra məqamlar üzərində ümumfəlsəfi-elmi səviyyədə dayanmağa çalışacağıq. Bizim burada başlıca tezisimiz ondan ibarətdir ki, müasir mərhələdə fəlsəfi-elmi kontekstdə qnoseologiya ilə epistemologiyanın qarşılıqlı münasibətləri (həm də fəlsəfi anlamda nisbətləri) mürəkkəb məzmun kəsb etmişdir. Onun fəlsəfi mənzərəsini yaratmaq daha geniş araşdırmalar tələb edir. Bizcə, hazırda qnoseoloji və epistemoloji yanaşma öncəki subyekt-obyekt və obyekt-bilik fərqləndirməsini aşmışdır. Biz yuxarıda vurğulamışıq ki, bir sıra müəlliflər qeyri-klassik fəlsəfədə epistemologiyanı ümumiyyətlə qnoseologiyanın və deməli, idrak nəzəriyyəsinin bir hissəsi kimi qəbul edirlər. Məsələn, E.M.Veçtomov yazır:

> *“Qeyri-klassik fəlsəfədə epsitemologiyaya qnoseologiyanın tərkib hissəsi kimi baxılır. Əgər qnoseologiya subyekt-obyekt münasibətlərini əsaslı və hərtərəfli öyrənirsə, epistemologiya obyekt-bilik münasibətlərini tədqiq edir”. Fikrinə davam edərək müəllif vurğulayır ki, “epistemologiyada biliyin özünə, quruluşuna və təkamülünə baxılır”* [11, s.14].

Əlbəttə, bu kimi fikirlərin biliyin əyaniləşmiş (predmetləşmiş) forması üçün əsası mövcuddur və əhəmiyyətlidir. Lakin problemin başqa bir aspektini ciddi surətdə nəzərə almağın vacibliyini də qəbul etməliyik. Fəlsəfi-elmi idrakın indiki mərhələsində subyekt-obyekt və obyekt-bilik münasibətləri xeyli dərəcədə subyekt-bilik münasibətlərində inteqrasiya olunmaqdadır. Bunun başlıca əlaməti intersubyektivliyin hazırda fəlsəfi-elmi idrakda idraki proseslərin mərkəzi anlayışlarından birinə çevrilməsi ilə bağlıdır. Müasir yanaşmalarda vurğulanır ki, fəlsəfi-elmi idrak mahiyyətcə intersubyektiv xarakterlidir [12, s.236-245]. İntersubyektivlik idrakda ön plana çıxanda fəlsəfi-elmi dərketmədə təcrübənin biliyin formalaşmasındakı roluna, subyektlərarası münasibətin “obyektivliyə” təsiri, elmi həqiqət anlayışının məzmunu, elmin cəmiyyətdəki funksiyası və digər aktual qnoseoloji məsələlər haqqında öncəki mərhələlərdən fərqli bucaq altında tədqiq edilir.

Burada həm elmiliyin nəzəri-metodoloji meyarları, həm əldə edilən biliyin struktur- funksional özəllikləri, həm də biliyin “insanölçülülüyü”

(V.Styopin) yeni prizmada məzmun kəsb edir. Nəticədə demək olar ki, müasir fəlsəfi-elmi idrakda qnoseologiya ilə epistemologiya xüsusi məzmunda qarşılıqlı əlaqədə olurlar. Hətta bu tezisi bir qədər də qüvvətləndirib deyə bilərik ki, hazırda postneoklassik elmi meyarlar çərçivəsində qnoseologiya ilə epistemologiyanın vəhdəti formalaşır.

Onların məzmun, koqnitiv məqsəd, tədqiqat üsulu və metodologiyası kimi "bir-birində əriməsi" bütövlükdə fəlsəfi-elmi idraka necə təsir edə bilər? Bir sıra tədqiqatçının proqnostik qiymətləndirməsinə görə, bu proses fəlsəfi-elmi idrakı daha da bədiiləşdirəcək və ya poetikləşdirəcək. Məsələn, postluman sosiologiyasının (kibersosiologiya) tanınmış nümayəndəsi Dirk Bekker gələcək cəmiyyət haqqında formalaşdırdığı məşhur 16 tezisində bu fikri konkret olaraq vurğulayır.

Rusiyalı tanınmış alim V.A.Lektorskiy isə "epistemologiyanın empirik faktları tədqiq etməyə ehtiyacı vardırmı?" sualını qoyur və verdiyi cavablardan biri aşağıdakı kimidir:

> *"Elmin fəlsəfəsi (elmin sosiologiyasından, iqtisadiyyatından və kulturulogiyasından fərqli olaraq) elmi idrakın epsitemologiyasından başqa bir şey deyildir"* [14, s.23].

Bununla o, müasir elmin fəlsəfəsi çərçivəsində qnoseologiya (idrak nəzəriyyəsi) ilə epistemologiyanı eyniləşdirir ki, bu barədə açıq yazır.

Əslində, V.Lektorskiy müasir fəlsəfi-elmi idrakda qnoseologiya ilə epistemologiyanın "çulğalaşmasından" bəhs edir. Çünki özü də əsərlərində dəfələrlə vurğulayır ki, "yeni epistemologiyaya (qnoseologiyaya) ehtiyac vardır" və bu prosesi "postqeyri-klassik epistemologiya yolunda" adlandırır.

Təbii ki, bu, elmi idrakın daxili təkamül məntiqi ilə sıx bağlıdır. Yuxarıda apardığımız analiz prizmasında bu məqam görünür. Qədim dövrlərdən qnoseologiyanın başladığı yol insan idrakının təbiəti, reallaşma mexanizmləri, əyaniləşmə üsulları kontekstində tarixi dinamikaya malik olmaqla yanaşı, vəhdətə doğru da istiqamətlənməli idi. E.Şredinger bu kimi tendensiyaları bütövlükdə insan idrakının təbii canatması kimi xarakterizə etməkdə, bizcə, haqlı idi.

Vurğulanan məqamla yanaşı, müasir qnoseologiya (və deməli, epistemologiya) üçün aktual olan aspektlərdən biri, fəlsəfi-elmi idrakın sosial-mədəni kontekstidir. V.Styopin bunu "idrakın daha çox insanölçülü olması" kimi izah edir. Faktdır ki, müasir tarixi mərhələdə fəlsəfi-elmi idrak sosial-mədəni mühitlə sıx bağlıdır. Onun əlamətləri sırasında hər bir elmi kəşfin cəmiyyətin həyatına necə təsir edə biləcəyinin müəyyən edilməsi xüsusi yer tutur. Və burada elmi kəşfin daha sürətli olaraq mümkün sosial-mədəni təsirlərinin araşdırılması birbaşa fəlsəfi-elmi idrakın atributuna çevrilir.

Görünür, hər şeydən öncə bu məqam filosoflara qnoseologiya ilə epistemologiyanın vəhdətindən bəhs etməyə əsas verməkdədir. Təbii ki, problemin başqa aspektləri də çox önəmlidir. Lakin bu məqalədə qarşıya qoyulan elmi məqsəd çərçivəsində aparılan analizləri kifayətedici hesab edirik. Eyni zamanda, bu özəlliyin də məsələnin daha ətraflı və dərindən analizinin zəruriliyini nümayiş etdirdiyini ifadə edirik.

**4.Nəticə**

Müasir fəlsəfi-elmi idrak çərçivəsində qnoseoloji və epistemoloji məsələlərin yeni səviyyədə qarşılıqlı münasibətdə olduğu qənaəti yaranır.

Burada filosofların qnoseologiya (idrak nəzəriyyəsi) ilə epsitemologiya arasında daha sıx bağlılığın olması haqqında tezislər irəli sürməsi tamamilə başa düşüləndir. XX əsrin sonlarında XXI əsrin əvvəllərində idrak nəzəriyyəsi ilə epistemologiyanın “subyekt-obyekt” və “obyekt-bilik” meyarları üzrə fərqləndirilmələri bütövlükdə öz gücünü saxlasa da, tədricən bu formulların “subyekt-bilik” konteksində vəhdət halına gəldikləri tezisini irəli sürmək olar. Bu prosesi koqnitiv səviyyədə motivə edən başlıca faktor kimi intersubyektivliyin fəlsəfi-elmi idrakda aparıcı yer tutmasını göstərmək olar.

## ƏDƏBİYYAT

1. Epistemology: [https://www.britannica.com/topic/ epistemology] London, Encyclopedia Britannica. Retrieved, 2020, 22.06. Müraciət tarixi 11.05.2022.
2. Зубова, И.Л. (2012). *Статус исторической эпистемологии в науке. Историческая наука сегодня. Теории, методы, перспективы* (Репина Л.П. (ред.) борник статей, теория и методология истории). М. Издательство ЛКИ, 607, с.8-10.
3. Бабайцев, А.Ю. (2003). *Эпистемология.* (Составитель и главный научный редактор А.А. Грицанов). Минск: Книжный Дом. Новейший философский словарь: 3-е изд., исправл, с.1232. (Мир энциклопедий).
4. Martinich, A.P. *Epistemology: [*https://www.britannica.com/topic/ epistemology*] Encyclopedia Britannica.* Retrieved 22 June 2020. Müraciət tarixi 11.05.2022.
5. Truncellito, D.A. *Epistemology:* [https://iep.utm.edu/Epistemo/] *Internet Encyclopedia of Philosophy.* Retrieved 2020.10.06. Müraciət tarixi 11.05.2022.
6. *Epistemology:* [https://en.wikipedia.org/wiki/Epistemology]. Müraciət tarixi 11.05.2022.

7. Лекторский, В.А. (2001). *Эпистемология классическая и неклассическая.* (В.А.Лекторский. М. Эдиториал) УРСС, 256 с.
8. Газали, А. *Книга, избавляющая от заблуждений.* Нур-Султан. Muftyat.kz: Официальный сайт Духовного Управления Мусульман Казахстана. [https://www.muftyat.kz/media/muftyat/228460_1391410003.pdf, 29 с. Müraciət tarixi 18.05.2022.]
9. Гулов И.Ф. (2020). *Проблемы знания и познания в философских и религиозных воззрениях аль-Газали.* Диссертация на соискание ученой степени кандидата философских наук. Душанбе, 154 с.
10. Epistemology: [https://en.wikipedia.org/wiki/Epistemology]. Müraciət tarixi 18.05.2022.
11. Вечтомов Е. М. (*2013*). *Философия математики: Монография.Киров.* Изд-во ООО «Радуга-ПРЕСС», 316 с.
12. Огурцов, А.П. (2009). Интерсубъективность как проблема философии науки. *Философия науки и техники, (14)*, с.235-246.
13. Общество будущего: какое оно? Беседа с Дирком Беккером. Горизонт сознания: [http://www.russ.ru/Mirovaya-povestka/Obschestvo-buduschego-kakoe-ono]. (2012), *Русский журнал.* Дата обращения 20.05.2022.
14. Лекторский, В.А. (2021). Нуждается ли эпистемология в исследовании эмпирических фактов? *Философия науки и техники, 26(2).* с.22–28

## Гносеология и эпистемология: сравнительный философский анализ

**Турана Алибекова**[*]
**Физули Гурбанов**[**]

**Абстракт.** Современный исторический этап актуализировал философское отражение философско-научного познания. Философы и методологи больше внимания уделяют внутренним эволюционным

[*] Докторант Института Философии и Социологии НАНА; Баку, Азербайджан (ответственный автор)
E-mail: turane.alibeyova91@icloud.com
https://orcid.org/0000-0002-6447-0170
[**] Доктор философских наук, доцент
Институт Философии и Социологии НАНА; Баку, Азербайджан
E-mail: fuzuli.qurbanov.59@mail.ru
https://orcid.org/0000-0002-2906-9218

**Цитировать статью:** Алибекова, Т. & Гурбанов, Ф. [2022]. Гносеология и эпистемология: сравнительный философский анализ. *Журнал «Metafizika», 5*(3), с.43-57.

***История статьи:***
*Статья поступила в редакцию: 08.05.2022*
*Отправлена на доработку: 10.06.2022*
*Принята для печати: 03.09.2022*

особенностям познавательного процесса, а также его социокультурному контексту. В статье рассматриваются значения гносеологии и эпистемологии в философско-научном познании в этой призме и динамика изменения их взаимодействия.

С этой целью рассматриваются философские особенности анализа гносеологических и эпистемологических вопросов философами и учеными древнего, средневековья и нового времени. Выводы делаются на основе анализа.

Основной целью статьи является преимущественно на современном этапе философски сопоставить эпистемологию с теорией познания в истории философско-научного познания.

В качестве методологии использованы междисциплинарные исследования в рамках системного подхода, а также основываясь на сравнительный анализ предоставлены синтез, самоорганизация знаний, наблюдение и интегративное объяснение.

Научная новизна заключается в выдвижении тезиса интерсубъективности на современном историческом этапе, играющего главную роль в переходе гносеологии на разные уровни взаимодействия.

**Ключевые слова:** субъект, объект, философско-научное познание, постнеоклассическая наука, интерсубъективность, когнитивная теория, восприятие восприятия, знание, рациональность.

## Gnoseology and epistemology: a comparative philosophical analysis

**Turana Alibeyova***
**Fuzuli Gurbanov****

**Abstract.** The modern historical stage has further actualized the philosophical reflection of philosophical-scientific cognition. Philosophers and methodologists pay more attention to the internal evolutionary features of the cognitive process, as well as its socio-cultural context. The article

---

* PhD student of Institute of History of Science of ANAS; Baku, Azerbaijan (corresponding author)
E-mail: turane.alibeyova91@icloud.com
https://orcid.org/0000-0002-6447-0170
** Doctor of sciences in philosophy, Assoc.prof,
Institute of History of Science of ANAS; Baku, Azerbaijan
E-mail: fuzuli.qrbanov.59@mail.ru
https://orcid.org/0000-0002-2906-9218

**To cite this article:** Alibeyova, T., & Gurbanov, F. [2022]. Gnoseology and epistemology: a comparative philosophical analysis. *“Metafizika” journal, 5*(3), pp.43-57.

***Article history:***
*Received: 08.05.2022*
*Accepted: 03.09.2022*

examines the meanings of epistemology (epistemology) and epistemology in philosophical and scientific cognition in this prism and the dynamics of changes in their interaction.

For this purpose, philosophical features of the analysis of epistemological and epistemological issues by philosophers and scientists in the Ancient, Middle Ages and the New Age are considered. Conclusions are obtained on the basis of the analysis.

The main purpose of the article is related to the attempt to philosophically measure epistemology with the theory of cognition in the history of philosophical-scientific cognition and mainly in the modern stage. As a methodology, interdisciplinary research was used as part of a systematic approach.

As a method, analysis, synthesis, self-organization of knowledge, observation, comparative analysis and integrative explanation were used.

Scientific innovation is to put forward the thesis that intersubjectivity plays a major role in the transition of epistemology and epistemology to different levels of interaction in the modern historical stage.

**Keywords*:*** subject, object, philosophical-scientific cognition, post-neoclassical science, intersubjectivity, cognitive theory, perception of perception, scientific knowledge, scientific rationality.

## REFERENCES

1. *Epistemology*: [https://www.britannica.com/topic/ epistemology] London, Encyclopedia Britannica. Retrieved, 2020, 22.06. Application date 11.05.2022. (in English)
2. Zubova, I.L. (2012). *Status of historical epistemology in science. Historical science today. Theories, methods, perspectives* (Repina L.P. (ed.) collection of articles, theory and methodology of history).M. LKI, 607, pp.8-10. (in Russian)
3. Babaytsev, A.Yu. (2003). *Epistemology*. (Composer and main scientific editor. Gritsanov, A.A). Minsk: Knizhnyi Dom. New philosophical dictionary: 3rd edition, corrected, p.1232. (World encyclopedia). (in Russian)
4. Martinich, A.P. *Epistemology*: [https://www.britannica.com/topic/ epistemology] Encyclopedia Britannica. Retrieved 22 June 2020. Date of application 11.05.2022. (in English)
5. Truncellito, D.A. *Epistemology*: [https://iep.utm.edu/Epistemo/] Internet Encyclopedia of Philosophy. Retrieved 2020.10.06. Date of application 11.05.2022. (in English)

6. *Epistemology*: [https://en.wikipedia.org/wiki/Epistemology]. Application date 11.05.2022. (in English)
7. Lektorsky, V.A. (2001). Classical and non-classical epistemology. (ed. by Lektorsky, V.A.). M. URSS, 256 p. (in Russian)
8. Ghazali, A. A book that frees you from confusion. Nur-Sultan. Muftyat.kz: Official website of the Religious Department of Muslim Kazakhstan. [https://www.muftyat.kz/media/muftyat/228460_1391410003.pdf] 29 p. Application date 18.05.2022. (in Russian)
9. Gulov, I.F. (2020). *Problems of knowledge and cognition in al-Ghazali's philosophical and religious views.* Dissertation on the application of the academic degree of candidate of philosophical sciences. Dushanbe, 154 p. (in Russian)
10. *Epistemology*: [https://en.wikipedia.org/wiki/Epistemology]. Application date 18.05.2022. (in English)
11. Vechtomov, E.M. (2013). *Philosophy of mathematics: Monograph.* Kirov. OOO «Raduga-PRESS», 316 p. (in Russian)
12. Ogurtsov, A.P. (2009). Intersubjectivity as a problem of philosophy of science. *Philosophy of science and technology, (14).* pp.235-246. (in Russian)
13. Society future: what is it? Conversation with Dirk Becker. Horizon of Consciousness: [http://www.russ.ru/Mirovaya-povestka/Obschestvo-buduschego-kakoe-ono]. (2012). *Russian magazine*. Date of circulation 20.05.2022. (in Russian)
14. Lektorsky, V.A. (2021). Is epistemology needed in the study of empirical facts? *Philosophy of Science and Technology, 26(2).* pp.22–28 (in Russian)